“Azərxüsusisənayeinvest” QSC

31 dekabr 2024-cü il tarixinə

Konsolidasiya Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

Mündəricat

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI

Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat 1
Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat 2
Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat 3
Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat 4

Maliyyə hesabatları üzrə Qeydlər

1 "Azərxüsusisənayeinvest" QSC və onun fəaliyyəti 5
2 Qrupun əməliyyat mühiti 5
3 Əsas uçot siyasəti 6
4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr 13
5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi 14
6 Yeni uçot qaydaları 15
7 Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar 15
8 Tikili və avadanlıqlar 16
9 Mal-material ehtiyatları 17
10 Ticarət və digər debitor borclar 17
11 Pul vəsaitləri və onların ekvivalentləri 17
12 Nizamnamə kapitalı 17
13 Ticarət və digər kreditor borclar 18
14 Gəlirlər 19
15 Mənfəət vergisi 19
16 Təəhhüdlər və şərti öhdəliklər 20
17 Maliyyə risklərinin idarə edilməsi 20
18 Kapitalın idarə olunması 23
19 Ədalətli dəyər haqqında açıqlamalar 24
20 Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi 24
21 Hesabat tarixindən sonrakı hadisələr 24

Azərbaycan manatı ilə	Qeyd	31 dekabr 2024	31 dekabr 2023
AKTİVLƏR			
Uzunmüddətli aktivlər			
Tikili və avadanlıqlar	8	1,065,034	1,164,878
Təxirə salınmış mənfəət vergisi aktivləri	15	45,730	49,254
Cəmi uzunmüddətli aktivlər		**1,110,764**	**1,214,132**
Qısamüddətli aktivlər			
Mal-material ehtiyatları	9	-	10,414
Ticarət və digər debitor borclar	10	285,241	271,206
Pul vəsaitləri və onların ekvivalentləri	11	53,451	77,428
Cəmi qısamüddətli aktivlər		**338,692**	**359,048**
CƏMİ AKTİVLƏR		**1,449,456**	**1,573,180**
KAPİTAL			
Nizamnamə kapitalı	12	94,800	94,800
Bölüşdürülməmiş mənfəət		1,252,956	1,334,351
CƏMİ KAPİTAL		**1,347,756**	**1,429,151**
ÖHDƏLİKLƏR			
Qısamüddətli öhdəliklər			
Ticarət və digər kreditor borclar	13	85,376	127,705
Cari mənfəət vergisi öhdəliyi		16,324	16,324
Cəmi qısamüddətli öhdəliklər		**101,700**	**144,029**
CƏMİ ÖHDƏLİKLƏR		**101,700**	**144,029**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**1,449,456**	**1,573,180**

30 iyun 2025-ci il tarixində Rəhbərlik adından təsdiqlənmiş və imzalanmışdır.

Fuad Seyidəliyev
İdarə Heyətinin Sədri

Baku, Azerbaijan Republic
Closed Joint Stock Company
AZSPETSPROMINVEST
AZƏRXÜSUSİSƏNAYEİNVEST
Qapalı Səhmdar Cəmiyyəti
Bakı, Azərbaycan Respublikası

Eyvaz Hüseyn
Baş mühasib

Azərbaycan manatı ilə	Qeyd	2024	2023
Gəlirlər	14	556,790	740,686
Sair gəlirlər		21,834	-
Əmək haqqı və işçilərlə bağlı digər xərclər		(431,638)	(460,312)
Köhnəlmə və amortizasiya xərcləri	8	(101,978)	(105,415)
Yanacaq xərcləri		(41,599)	(44,120)
İcarə xərcləri		(13,800)	-
Mənfəət vergisindən başqa digər vergilər		(13,524)	-
Mühafizə xidməti xərcləri		(9,910)	(11,396)
Rabitə xərcləri		(8,252)	(9,623)
Kommunal xərclər		(7,120)	(6,064)
Peşəkar xidmət haqları və məsləhət xidmətləri		(4,826)	(4,710)
Bank komissiyaları		(4,672)	(10,892)
Ezamiyyə xərcləri		(2,358)	(12,731)
Sığorta xərcləri		(1,812)	(4,042)
Reklam xərcləri		-	(8,510)
Məzənnə fərqi üzrə zərər		-	(5,969)
Digər xərclər		(15,006)	(1,731)
Vergidən əvvəlki mənfəət/(zərər)		**(77,871)**	**55,171**
Mənfəət vergisi (xərci)/gəliri	15	(3,524)	(14,993)
İL ÜZRƏ MƏNFƏƏT/(ZƏRƏR)		**(81,395)**	**40,178**
İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR/(ZƏRƏR)		**(81,395)**	**40,178**

30 iyun 2025-ci il tarixində Rəhbərlik adından təsdiqlənmiş və imzalanmışdır.

Fuad Seyidəliyev
İdarə Heyətinin Sədri

Baki, Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti AZƏRXÜSUSİSƏNAYEİNVEST Closed Joint Stock Company AZSPETSPROMINVEST Baku, Azerbaijan Republic

Eyvaz Hüseyn
Baş mühasib

Azərbaycan manatı ilə	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi
1 yanvar 2023-cü il tarixinə qalıq	**94,800**	**1,294,173**	**1,388,973**
İl üzrə mənfəət	-	40,178	40,178
31 dekabr 2023-cü il tarixinə qalıq	**94,800**	**1,334,351**	**1,429,151**
İl üzrə zərər	-	(81,395)	(81,395)
31 dekabr 2024-cü il tarixinə qalıq	**94,800**	**1,252,956**	**1,347,756**

30 iyun 2025-ci il tarixində Rəhbərlik adından təsdiqlənmiş və imzalanmışdır.

Baku, Azerbaijan Republic Qapalı Səhmdar Cəmiyyəti AZƏRXÜSUSİSƏNAYEİNVEST AZSPETSPROMINVEST Closed Joint Stock Company

Fuad Seyidəliyev
İdarə Heyətinin Sədri

Eyvaz Hüseyn
Baş mühasib

Azərbaycan manatı ilə	Qeyd	2024	2023
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Mənfəət vergisindən əvvəlki (zərər)/mənfəət		(77,871)	55,171
Düzəlişlər:			
Tikili və avadanlıqların amortizasiyası	8	101,978	105,415
Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti		**24,107**	**160,586**
Ticarət və digər debitor borclarda (artım)/azalma		(14,035)	(195,177)
Mal-material ehtiyatlarında (artım)/azalma		10,414	-
Ticarət və digər kreditor borclarda artım /(azalma)		(42,329)	112,923
Dövriyyə kapitalında dəyişikliklər		**(21,843)**	**78,332**
Ödənilmiş mənfəət vergisi		-	-
Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**(21,843)**	**78,332**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Tikili və avadanlıqların alınması	8	(2,134)	(2,034)
İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(2,134)**	**(2,034)**
Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Borc öhdəlikləri üzrə daxilolmalar		-	95,000
Borc öhdəliklərinin ödənilməsi		-	(165,000)
Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		-	**(70,000)**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	11	**77,428**	**71,130**
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	11	**53,451**	**77,428**

30 iyun 2025-ci il tarixində Rəhbərlik adından təsdiqlənmiş və imzalanmışdır.

Fuad Seyidəliyev
İdarə Heyətinin Sədri

Baku, Azerbaijan Republic Qapalı Səhmdar Cəmiyyəti AZƏRXÜSUSİSƏNAYEİNVEST AZSPETSPROMINVEST Closed Joint Stock Company

Eyvaz Hüseyn
Baş mühasib

1 "Azərxüsusisənayeinvest" QSC və onun fəaliyyəti

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları "Azərxüsusisənayeinvest" QSC-nin ("Cəmiyyət") və onun törəmə müəssisəsinin (birlikdə "Qrup") maliyyə hesabatlarından ibarətdir.

Cəmiyyət 26 fevral 1999-cu il tarixində Azərbaycan Respublikasında təsis olunub və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qapalı səhmdar cəmiyyəti formasında təsis edilmişdir.

31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin səhmdarlarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir

	2024, %	2023, %
"Azairtechservice LTD" MMC	62	62
Fuad Seyidəliyev Sədra oğlu	19	19
Rəhimov Arif Fazil oğlu	19	19
"TRADE IMPEX LTD" MMC	-	-
Cəmi	**100**	**100**

Əsas fəaliyyət istiqaməti. Cəmiyyətin əsas fəaliyyəti işçi qüvvəsinin təchizatı və digər məsləhət xidmətləri göstərməkdən ibarətdir.

Cəmiyyətin hüquqi və faktiki ünvanı. Cəmiyyətin hüquqi və faktiki ünvanı: Xan Şuşinski küçəsi 28, Bakı, Azərbaycan.

Təqdimat valyutası. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda, Azərbaycan manatı ilə ("AZN") təqdim edilir.

Cəmiyyətin yeganə törəmə müəssisəsi haqqında məlumat aşağıda göstərilir:

Adı	Təsis edildiyi ölkə	Əsas fəaliyyəti	İştirak payı %	
			2024	2023
"İsramed AZ" MMC	Azərbaycan Respublikası	Bərpaedici tibbi sarğılarının satışı	100	100

Şirkət 7 yanvar 2022-ci il tarixində Azərbaycan Respublikasında təsis olunub və bu ölkədə fəaliyyət göstərir.

Şirkətin hüquqi və faktiki ünvanı. Nərimanov rayonu, Həsənoğlu ev B, mənzil 4A, Bakı, Azərbaycan Respublikası.

2 Qrupun əməliyyat mühiti

Azərbaycan Respublikası. Qrup Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərir. Bununla da, Qrup Azərbaycanın inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas iqtisadi və maliyyə mühitinin təsirlərinə məruz qalır. Azərbaycan Respublikasında hüquqi, vergi və normativ bazanın təkmilləşdirilməsi davam etsə də, onların müddəalarının fərqli şərh olunması və tez-tez dəyişdirilməsi digər hüquqi və vergi məsələləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin müxtəlif çətinliklərlə üzləşməsinə səbəb olur. 2015-2016-cı illərdə Azərbaycan manatının dəyərsizləşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuş və hökumət son 5 ildə manatın məzənnəsinin sabit qalması üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, dünya bazarında neft qiymətlərinin davamlı dəyişməsi yerli valyutaya təsir göstərməmiş və buna görə də biznes mühitində əhəmiyyətli qeyri-müəyyənliklərə yol açmamışdır. COVID-19 pandemiyası 2020-ci ildə biznes sahəsinə əhəmiyyətli dərəcədə təsir göstərmiş, lakin hökumətin həyata keçirdiyi uğurlu vaksinasiya tədbirlərindən sonra müəssisələrin əksəriyyəti 2022-ci ildə tədricən normal fəaliyyətini bərpa etmişdir. Bundan əlavə, Qarabağda atəşkəs rejiminin davamlılığı, həmçinin işğaldan azad edilmiş ərazilərin inkişafı və bərpası istiqamətində investisiyaların cəlb edilməsi məqsədilə hökumətin həyata keçirdiyi bir sıra layihələr biznes mühitinin yaxşılaşmasına səbəb olmuşdur.

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında Azərbaycandakı biznes mühitinin Qrupun fəaliyyətinə və maliyyə vəziyyətinə təsiri rəhbərlik tərəfindən qiymətləndirilir. Gələcək biznes mühiti ilə bağlı proqnozlar rəhbərliyin hazırkı qiymətləndirməsindən fərqli ola bilər.

3 Əsas uçot siyasəti

Konsolidasiya edilmiş maliyyə hesabatlarının tərtibatının əsasları. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərlə tanımaqla, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı tətbiq edilən əsas uçot siyasətləri aşağıda göstərilir. Həmin uçot siyasətləri başqa cür göstərilmədiyi hallarda, təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında uçot təxminləri və fərziyyələrin əhəmiyyətli olduğu sahələr Qeyd 4-də açıqlanır.

Fəaliyyətin fasiləsizliyi. Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarını fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlamışdır.

Konsolidasiya edilmiş maliyyə hesabatları. Qrup (i) investisiya obyektinin gəlirlərinə əhəmiyyətli təsir göstərən müvafiq funksiyaları idarə etmək səlahiyyətinə malik olduqda (ii) investisiya obyektində iştirakından yaranan dəyişən gəlirlər ilə əlaqədar risklərə məruz qaldıqda və ya belə gəlirləri əldə etmək hüququna malik olduqda və (iii) investorun gəlirlərinə təsir göstərmək məqsədilə investisiya obyektinin üzərində öz səlahiyyətlərindən istifadə etmək imkanına malik olduqda belə müəssisələr Qrupun nəzarəti altında olan törəmə müəssisələr sayılır. Qrupun digər müəssisə üzərində səlahiyyətlərini müəyyən edərkən əsaslı hüquqların mövcudluğu və təsiri, o cümlədən potensial səsvermə hüquqları nəzərə alınır. Hüquq o halda əsaslı olur ki, belə hüquq sahibi investisiya obyektinin fəaliyyətinin əhəmiyyətli hissəsi ilə bağlı qərar qəbul etdiyi zaman belə hüququ praktiki olaraq icra etmək imkanına malik olsun. Qrup hətta investisiya obyektinin səsvermə hüquqlarının çox hissəsinə malik olmadıqda belə, investisiya obyekti üzərində səlahiyyətlərə malik ola bilər. Belə hallarda Qrup investisiya obyekti üzərində real səlahiyyətlərə malik olub-olmadığını müəyyən etmək məqsədilə digər səsvermə hüquqlu şəxslərin hüquqlarının həcmi və bölüşdürülmə dərəcəsi ilə əlaqədar öz səsvermə hüququnun həcmini qiymətləndirməlidir. Törəmə müəssisələrin əməliyyatları üzrə nəzarət Qrupa keçdiyi tarixdən (alış tarixi) belə müəssisələr konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilir və nəzarətin itirildiyi tarixdən konsolidasiya edilmiş maliyyə hesabatlarından çıxarılır.

Qrupdaxili əməliyyatlar, bu əməliyyatlar üzrə qalıqlar, eləcə də qrup arasında həyata keçirilən əməliyyatlar üzrə reallaşdırılmamış gəlirlər hesabatlarda əks etdirilmir. Bundan əlavə, realizasiya olunmamış zərərlər də çəkilmiş xərclər bərpa edilmədiyi halda maliyyə hesabatlarından çıxarılır. Agentlik və onun törəmə müəssisələri Qrupun siyasətinə uyğun olaraq vahid uçot siyasəti tətbiq edir. Zərurət yarandıqda, törəmə müəssisələrin hesabatlarında əks etdirilən məbləğlər Qrupun uçot siyasətinə uyğunlaşdırılmışdır.

Ümumi nəzarətdə olan tərəflərdən törəmə müəssisələrin alınması. Ümumi nəzarətdə olan tərəflərdən törəmə müəssisələrin alınması aktivləri ötürən müəssisənin qiymətləndirmə üsulundan istifadə etməklə alış metodu ilə uçota alınır. Bu metoda uyğun olaraq, birləşdirilmiş müəssisənin konsolidasiya edilmiş maliyyə hesabatları müəssisələrin təqdim edilən ən erkən dövrün əvvəlindən və ya daha gec olarsa, birləşdirilən müəssisələrin ümumi nəzarətə keçdiyi tarixdən etibarən birləşməsi kimi təqdim edilir. Törəmə müəssisənin ümumi nəzarətdə olan müəssisələr arasında ötürülən aktiv və öhdəlikləri ötürən tərəfin maliyyə hesabatlarında göstərilən balans dəyəri ilə qeydə alınır.

Aktivləri ötürən tərəf əsas hesabat verən Qrup hesab edilir və törəmə müəssisənin MHBS-ə uyğun hazırlanmış maliyyə məlumatları bu Qrupun daxilində konsolidasiya edilir. Aktivləri ötürən tərəfin ilkin alışları zamanı yaranan qudvil də konsolidasiya edilmiş maliyyə hesabatlarında qeydə alınır. Xalis aktivlərin balans dəyəri, o cümlədən aktivləri ötürən tərəfin qudvili ilə ödənilmiş məbləğ arasındakı hər hansı fərq hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında kapitalda sair ehtiyatlara düzəliş kimi göstərilir.

Törəmə, asılı və birgə müəssisələrin silinməsi. Qrup Qrup üzərində nəzarəti və ya əhəmiyyətli təsiri itirdikdə, müəssisədəki hər hansı bölüşdürülməmiş mənfəət nəzarətin itirildiyi tarixdə ədalətli dəyərdə yenidən qiymətləndirilir və balans dəyərindəki dəyişikliklik mənfəət və ya zərərdə tanınır. Ədalətli dəyər əlaqəli müəssisələr, birgə müəssisələr və ya maliyyə aktivləri kimi mövcud iştirak paylarının sonrakı uçotu məqsədilə istifadə edilən ilkin balans dəyəridir.

3 Əsas uçot siyasəti (davamı)

Bundan əlavə, həmin müəssisə ilə bağlı əvvəlki illərdə sair məcmu gəlirlərdə tanınmış hər hansı məbləğ Qrupun müvafiq aktiv və öhdəliklərini birbaşa satması kimi uçota alınır. Bu, əvvəlki illərdə sair məcmu gəlirlərdə uçota alınmış məbləğlərin mənfəət və zərərə yenidən təsnifləşdirilməsidir.

Asılı müəssisədəki iştirak payının azaldılması, lakin əhəmiyyətli təsir itirilmədiyi təqdirdə əvvəllər məcmu gəlirdə tanınmış məbləğin yalnız mütənasib payı müvafiq olaraq mənfəət və ya zərərdə yenidən təsnifləşdirilir.

Xarici valyutanın çevrilməsi. Qrupun əməliyyat valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Qrupun əməliyyat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatıdır ("AZN"). Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun təqdimat valyutası olan Azərbaycan manatı ilə ("AZN") təqdim edilir.

31 dekabr 2023-cü il tarixinə xarici valyuta qalıqlarının çevrilməsi üçün əsas mübadilə məzənnəsi aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 1.7724 AZN (31 dekabr 2023: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 1.8766 AZN). Manat, həmçinin hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün təqdimat valyutasıdır.

Əməliyyatlar və qalıqlar. Monetar aktivlər və öhdəliklər Azərbaycan Respublikası Mərkəzi Bankının ("Mərkəzi Bank") müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq Qrupun əməliyyat valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Qrupun əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə tanınır. Pul vəsaitləri və onların ekvivalentləri ilə bağlı məzənə fərqlərindən yaranan gəlir və zərər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda "maliyyə gəlirləri və ya xərcləri" kimi göstərilir. Məzənə fərqindən yaranan bütün digər gəlir və zərərlər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda "sair xalis gəlirlər/xərclər" kimi qeydə alınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir.

Tikili və avadanlıqlar. Tikili və avadanlıqlar yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, ilkin dəyərdə uçota alınır. Tikili və avadanlıqlara gələcəkdə əsas vəsait kimi istifadə olunacaq başa çatdırılmamış tikililər aiddir.

Tikili və avadanlıqlar ilə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin balans dəyərində və ya ayrıca aktiv kimi yalnız o halda tanınır ki, Qrupun həmin aktivlə bağlı gələcəkdə iqtisadi səmərə əldə edəcəyi ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə qiymətləndirilə bilsin. Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Tikili və avadanlıqların əsas hissələrinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda tikili və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərini təhlil edir. Əgər belə əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri geri qaytarılır.

Aktivlərin silinməsindən yaranan mənfəət və ya zərər gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və ya zərərdə tanınır.

Amortizasiya. Torpaq üçün amortizasiya hesablanmır. Digər tikili və avadanlıqlar üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

	Faydalı istifadə müddəti
Binalar, tikililər və qurğular	4 - 20 il
Maşın və digər avadanlıqlar	3 - 5 il
Nəqliyyat vasitələri	5 il

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra, Qrup tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

3 Əsas uçot siyasəti (davamı)

Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi. Amortizasiya hesablanan əsas vəsaitlər və qeyri-maddi aktivlər balans dəyərinin bərpa edilə bilmədiyini göstərən hadisə və ya şərait dəyişiklikləri baş verdikdə dəyərsizləşməyə görə təhlil edilir. Dəyərsizləşmə zərəri aktivin balans dəyərinin onun bərpa edilə bilən dəyərindən artıq olan məbləğdə tanınır. Aktivin bərpa edilə bilən dəyəri onun ədalətli dəyəri və satış üzrə məsrəfləri çıxılmaqla istifadə dəyərindən daha yüksək olan dəyəridir.

Dəyərsizləşməni müəyyən etmək üçün aktivlər əhəmiyyətli dərəcədə sərbəst pul vəsaitləri yaradan ən kiçik aktivlər (pul vəsaiti yaradan vahidlər) üzrə qruplaşdırılır. Qeyri-maliyyə aktivlərinin əvvəlki dövrlərdə dəyərsizləşməsinin bərpa olunma ehtimalı hər bir hesabat tarixində təhlil edilir.

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları. Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir; (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar aiddir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər (AC) əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir. Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (o cümlədən təqdim olunma zamanı təxirə salınmış komissiyalar, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərində əks olunur.

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir.

3 Əsas uçot siyasəti (davamı)

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Belə mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

Maliyyə alətlərinin ilkin tanınması. FVTPL kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə sübut edilir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları. Qrup maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri kateqoriyasına təsnifləşdirir. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi (i) müvafiq aktivlər portfelinin idarə olunması üzrə Qrupun biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model. Biznes model Qrupun pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Qrupun məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə pul axınlarının əldə edilməsi ("müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan pul axınlarının əldə edilməsi ("müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və FVTPL kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Qrupun həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri. Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Qrup pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (SPPI testi).

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi FVTPL kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. SPPI testi aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir.

Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi. Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilməlidir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Qrup cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

Maliyyə aktivlərinin dəyərsizləşməsi: gözlənilən kredit zərərləri üzrə ehtiyat. Qrup amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri üzrə gözlənilən kredit zərərlərini (GKZ) proqnozlar əsasında qiymətləndirir. Qrup hər bir hesabat tarixində gözlənilən kredit zərərlərini qiymətləndirir və maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərərlərini tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat.

3 Əsas uçot siyasəti (davamı)

Ticarət və digər debitor borclar gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

Qrup ticarət debitor borclarının dəyərsizləşməsi üzrə sadələşdirilmiş yanaşma tətbiq edir. GKZ-nin qiymətləndirilməsi üçün ticarət debitor borcları kredit riskinin ümumi xüsusiyyətlərinə və vaxtı keçmiş günlərin sayına əsasən qruplaşdırılmışdır. 31 dekabr 2024-ci il tarixinə heç bir GKZ olmamışdır.

Maliyyə aktivlərinin silinməsi. Maliyyə aktivlərini bərpa etmək üçün Qrupun bütün praktiki imkanları tükəndikdə və Qrup belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Qrup müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması. Qrup aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Qrup maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda.

Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları. Qrupun maliyyə öhdəlikləri ilkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilir.

Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması. Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik icra edildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

Öhdəliklərin icrası ilə nəticələnməyən dəyişikliklər əvəvlki tarixlə məcmu amortizasiyanın hesablanması metodu ilə təxmini göstəricinin dəyişməsi kimi uçota alınır və bu zaman gəlir və ya zərər balans dəyərindəki fərqin iqtisadi mahiyyəti səhmdar ilə kapital əməliyyatlarına aid edilmədiyi təqdirdə, mənfəət və ya zərərdə əks etdirilir.

Maliyyə alətlərinin əvəzləşdirilməsi. Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan pul vəsaitləri və banklardakı tələbli depozitlər aiddir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmir.

Ticarət və digər debitor borclar. Ticarət və digər debtor borclar ilkin olaraq ədalətli dəyərdə, sonra isə effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə qeydə alınır.

Ticarət və digər kreditor borclar. Ticarət və digər kreditor borclar qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirdiyi zaman hesablanır və ilkin olaraq ədalətli dəyərlə, sonra isə effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə tanınır.

Borc öhdəlikləri. Borc öhdəlikləri ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərdə, sonradan isə effektiv faiz metoduna əsasən amortizasiya edilmiş dəyərdə tanınır.

3 Əsas uçot siyasəti (davamı)

Borc öhdəlikləri üzrə xərclərin kapitallaşdırılması. Təyinatı üzrə istifadəyə və ya satışa hazır vəziyyətə gətirilməsi üçün əhəmiyyətli dərəcədə vaxt tələb edilən aktivlərin (kvalifikasiya olunan aktivlər) əldə edilməsi və tikilməsi ilə birbaşa əlaqəli olan ümumi və müəyyən edilmiş məqsədlər üçün cəlb edilmiş borclar üzrə xərclər kapitallaşdırmanın başlanma tarixi 1 yanvar 2009-cu il və ya daha gec olarsa, həmin aktivlərin dəyərinə daxil edilir.

Kapitallaşdırma Qrup tərəfindən (a) kvalifikasiya olunan aktivlər ilə bağlı xərclər çəkildikdə; (b) borc öhdəlikləri üzrə xərclər çəkildikdə; və (c) aktivin təyinatı üzrə istifadəyə və ya satışa hazır vəziyyətə gətirilməsi ilə bağlı zəruri tədbirlər görüldükdə başlayır.

Borc öhdəlikləri üzrə xərclərin kapitallaşdırılması aktivlərin əhəmiyyətli dərəcədə istifadəyə və ya satışa hazır olduğu tarixədək davam edir.

Qrup kvalifikasiya olunan aktivlər ilə bağlı kapital xərcləri çəkməyəcəyi halda, qarşısının alınması mümkün olan borclar üzrə xərcləri kapitallaşdırır. Kvalifikasiya olunan aktivin əldə edilməsi üçün vəsaitlərin borc götürüldüyü hallar istisna olmaqla, kapitallaşdırılmış faiz xərcləri Qrupun maliyyələşdirmə xərclərinin orta dəyəri ilə hesablanır (kvalifikasiya olunan aktivlər üzrə xərclərə orta çəkili faiz xərcləri tətbiq edilir). Bu baş verdikdə, həmin borcların müvəqqəti investisiyasından yaranan hər hansı investisiya gəlirləri çıxılmaqla, dövr ərzində müəyyən edilmiş borclar üzrə çəkilmiş faktiki xərclər kapitallaşdırılır.

Mənfəət vergisi. Hazırki konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət vergisi hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyin tələblərinə uyğun olaraq əks etdirilir. Mənfəət vergisi xərci/gəliri cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, il üzrə mənfəət və ya zərərdə tanınır. Lakin, həmin və ya başqa dövrdə sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınan əməliyyatlara aid olan vergilər sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır.

Cari vergilər cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar ödəniləcək və ya geri qaytarılacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər konsolidasiya edilmiş maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (müəssisələrin birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

Qeyri-müəyyən vergi mövqeləri. Qrupun qeyri-müəyyən vergi mövqeləri rəhbərlik tərəfindən hər bir hesabat dövrünün sonunda yenidən qiymətləndirilir. Rəhbərlik Qrupun vergi mövqeyinə vergi orqanları tərəfindən etiraz edildiyi halda, əlavə vergi öhdəliklərinin yaranmasını ehtimal etdikdə, vergi öhdəlikləri nəzərə alınmır. Bu cür qiymətləndirmə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi qanunvericiliyinin təfsirinə və bu məsələlərə dair hər hansı məhkəmə və ya digər qurumların məlum qərarlarına əsasən aparılır. Mənfəət vergisi istisna olmaqla, cərimələr, penyalar və vergilər üzrə öhdəliklər hesabat dövrünün sonunda öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan xərclərə dair rəhbərliyin ən yaxşı təxminləri əsasında uçota alınır. Faiz və cərimələr istisna olmaqla, qeyri-müəyyən vergi mövqeləri üzrə düzəlişlər mənfəət vergisi xərci kimi qeydə alınır. Faiz və cərimələr ilə bağlı qeyri-müəyyən vergi mövqeləri üzrə düzəlişlər müvafiq olaraq xalis maliyyə xərcləri və sair gəlirlər/(zərərlərin) tərkibində qeyd alınır.

3 Əsas uçot siyasəti (davamı)

Əlavə dəyər vergisi. Vergi tutulan əməliyyatın vaxtı təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödəmənin aparıldığı vaxtdır. Ödəmə aşağıdakı vaxtda aparılmış sayılır:

- pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt;
- qarşılıqlı hesablaşmalar aparıldıqda öhdəliyin ləğv edildiyi və ya ödənildiyi vaxt;
- malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə – iddia müddətinin bitdiyi vaxt;
- natura şəklində aparıldıqda, habelə barter edildikdə – aktivlərin əldə edildiyi (barter edildiyi) vaxt;
- əvəzsiz təqdim edildiyi hallarda təqdimetmənin həyata keçirildiyi vaxt;
- tələb hüququ güzəşt edildikdə – güzəşt edilən məbləğ üzrə tələb hüququnun güzəşt edildiyi vaxt.

Ödəmə malların (işlərin, xidmətlərin) təqdim edilməsinədək həyata keçirildikdə, vergi tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi vaxt sayılır. Vergi tutulan əməliyyat üçün iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır. Alınmış avans ödəmələri üzrə elektron qaimə-faktura verilməsinə yol verilmir.

Ümumiyyətlə, ödənilmiş ƏDV məbləğləri vergi hesab fakturaları alındıqdan sonra satışdan hesablanan əlavə dəyər vergisi ilə əvəzləşdirilə bilər. Vergi orqanları ƏDV-nin xalis məbləğdə ödənilməsinə icazə verir. Satış və alışlar üzrə ƏDV maliyyə vəziyyəti haqqında hesabatda ümumi məbləğdə qeydə alınır və maliyyə hesabatında ayrıca olaraq aktiv və öhdəlik kimi göstərilir.

Mal-material ehtiyatları. Mal-material ehtiyatları maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olan dəyərlə qeydə alınır. Mal-material ehtiyatlarının maya dəyəri FİFO metodu (ilk mədaxil ilk məxaric) ilə müəyyən edilir. Mümkün xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, adi fəaliyyət gedişində təxmin edilən satış qiymətidir.

Avans ödənişləri. Avans ödənişləri dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, maya dəyərində qeydə alınır. Avans ödənişi üzrə mal və xidmətlərin bir ildən sonra əldə edilməsi nəzərdə tutulduqda, yaxud bu ödəniş ilkin uçot zamanı uzunmüddətli aktiv kimi təsnifləşdiriləcək aktivə aid olduqda uzunmüddətli aktiv kimi təsnifləşdirlir. Aktivi əldə etmək üçün avans ödənişləri Qrup bu aktiv üzərində nəzarəti əldə etdikdə və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Qrupa daxil olacağı ehtimal edildikdə aktivin qalıq dəyərinə köçürülür. Digər avans ödənişləri bu ödənişlərin aid olduğu xidmətlər əldə edildikdə mənfəət və ya zərərə silinir. Əgər avans ödənişinin aid olduğu aktivlər, mallar yaxud xidmətlərin əldə edilməməsi gözlənilirsə, həmin avans ödənişinin qalıq dəyəri müvafiq şəkildə balansdan silinir və il üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə ehtiyat tanınır.

Nizamnamə kapitalı. Nizamnamə kapitalı Qrupun səhmdarı tərəfindən kapital qoyuluşlarından ibarətdir. Kapital qoyuluşları ilkin dəyərlə tanınır.

Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar. Öhdəliklər və məsrəflər üzrə ehtiyatlara qeyri-müəyyən müddət və ya məbləğə malik olan öhdəliklər daxildir. Qrup keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan resursların istifadə ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə ehtiyatlar uçota alınır. Ehtiyatlar vergidən əvvəlki faiz dərəcəsini istifadə etməklə öhdəliyin yerinə yetirilməsi üçün zəruri olan xərclərin cari dəyəri ilə qiymətləndirilir. Vergidən əvvəlki faiz dərəcəsi pulun zaman dəyəri üzrə cari bazar qiymətləndirmələrini və həmin öhdəliklə bağlı riskləri əks etdirir. Zamanın keçməsi ilə əlaqədar ehtiyat üzrə artım maliyyə məsrəflərinin tərkibində faiz xərcinə aid edilir.

Gəlirlərin tanınması. Gəlir Qrupun adi fəaliyyəti zamanı yaranır. Gəlir əməliyyat qiymətinin məbləğində tanınır. Əməliyyat qiyməti vəd verilmiş mal və xidmətlər üzrə nəzarətin alıcıya ötürülməsi müqabilində üçüncü tərəflərin adından alınan məbləğlər istisna olmaqla, Qrup tərəfindən əldə ediləcəyi gözlənilən ödənişlərdir.

Gəlir güzəştlər, əlavə dəyər vergisi və digər oxşar icbari ödənişlər çıxılmaqla tanınır.

3 Əsas uçot siyasəti (davamı)

Xidmətlərin satışı. Qrup sabit qiymətli müqavilələr əsasında xidmətlər göstərir. Qrup dövr ərzində xidmət üzərində nəzarəti ötürdüyünə görə icra öhdəliyini dövr ərzində yerinə yetirir və xidmətlərin göstərilməsindən əldə olunan gəlir xidmətlərin göstərildiyi hesabat dövründə tanınır. Sabit qiymətli müqavilələr üzrə gəlir müştəri tərəfindən xidmətlərin eyni zamanda qəbul edilməsi və istifadəsinə görə hesabat dövrünün sonuna qədər faktiki göstərilmiş xidmətlərin göstəriləcək ümumi xidmətlərə nisbəti kimi tanınır. İcra öhdəliyi dövr ərzində yerinə yetirilmədikdə, əldə olunan gəlir Qrup icra öhdəliyini yerinə yetirdiyi anda tanınır.

İşçi heyəti ilə bağlı ödənişlər. Əmək haqları, Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar (məsələn, səhiyyə və uşaq bağçası xidmətləri) Qrupun işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır. Qrupun sosial ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Qrup konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçin peşəkar ehtimallar və təxminlər irəli sürür. Konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

Təxirə salınmış vergi aktivinin uçotu. Tanınmış təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivi müvafiq vergi faydasının realizasiya oluna biləcəyi zaman qeydə alınır. Bu, gələcəkdə bərpa edilməsi gözlənilən müvəqqəti fərqlərdən və çıxılmaların istifadə edilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb edilən mənfəətin mövcudluğundan asılıdır. Vergiyə cəlb olunan gələcək mənfəətin və gələcəkdə yaranması ehtimal edilən vergi gəlirlərinin müəyyən edilməsi rəhbərlik tərəfindən hazırlanmış ortamüddətli biznes planına və onun ekstrapolyasiya nəticələrinə əsaslanır. Biznes-plan rəhbərliyin şəraitə adekvat olan təxminlərinə əsaslanır.

Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu. Qrup adi fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. MHBS 9-a uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə uçota alınmalıdır. Lakin həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat Qeyd 7-də açıqlanır.

Tikili və avadanlıqlarn faydalı istifadə müddəti. Tikili və avadanlıqların faydalı istifadə müddətinin müəyyən edilməsi oxşar aktivlər ilə bağlı mövcud təcrübəyə əsasən peşəkar mülahizələr tətbiq etməklə aparılmışdır. Belə aktivlərlə bağlı gələcək iqtisadi faydalar əsasən onların istifadəsi nəticəsində əldə ediləcəkdir. Lakin avadanlığın texniki və kommersiya baxımından köhnəlməsi və aşınması kimi digər amillər bu aktivlərlə bağlı iqtisadi faydaların azaldılmasına gətirib çıxarır. Rəhbərlik aktivlərin cari texniki vəziyyətini və bu aktivlərin Qrupa iqtisadi fayda gətirəcəyi təxmin edilən dövrü nəzərə alaraq, əsas vəsaitlərin qalan faydalı istifadə müddətini müəyyən edir. Bu zaman aşağıdakı əsas amillər nəzərə alınır: (a) aktivlərin gözlənilən istifadə müddəti; (b) istismar göstəriciləri və texniki xidmət qaydalarından asılı olan gözlənilən fiziki köhnəlmə və aşınma; və (c) bazar şərtlərindəki dəyişikliklər nəticəsində avadanlığın texnoloji və kommersiya baxımından köhnəlməsi və aşınması.

5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Aşağıdakı dəyişikliklər 1 yanvar 2024-cü il tarixindən qüvvəyə minmişdir:

MUBS 1-ə dəyişikliklər – Öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsi (ilkin olaraq 23 yanvar 2020-ci ildə dərc olunub və sonradan 15 iyul 2020-ci il və 31 oktyabr 2022-ci il tarixlərində dəyişikliklər edilmiş, yekun olaraq 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər hesabat dövrünün sonunda mövcud olan hüquqlardan asılı olaraq, öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirildiyini izah edir. Əgər müəssisə hesabat dövrünün sonunda öhdəliklərin icrasını ən azı on iki ay müddətinə təxirə salmaq üçün əsaslı hüquqa malikdirsə, o zaman öhdəliklər uzunmüddətli kimi təsnifləşdirilir. Yeni dəyişikliklər belə hüququn qeyri-şərtsiz olmasını artıq tələb etmir. 2022-ci ilin oktyabr ayında edilmiş dəyişikliklərə əsasən hesabat tarixindən sonra riayət edilməli olan xüsusi kredit şərtləri hesabat tarixində öhdəliyin cari və ya uzunmüddətli kimi təsnifləşdirilməsinə təsir etmir. Rəhbərliyin hesabat tarixindən sonrakı dövr ərzində öhdəliyin icrasını təxirə salmaq hüququnun istifadəsinə dair gözləntiləri öhdəliklərin təsnifatına təsir göstərmir. Öhdəlik hər hansı şərtin hesabat tarixində və ya ondan əvvəl pozulduğu halda qısamüddətli kimi təsnifləşdirilir (hətta kreditor bu şərtin pozulması ilə bağlı hesabat dövründən sonra rəsmi razılıq təqdim etsə belə). Kredit müqaviləsinin şərti hesabat tarixindən sonra pozularsa, kredit uzunmüddətli öhdəlik kimi təsnifləşdirilir. Əksər maliyyə institutları kimi, Qrup da maliyyə vəziyyəti haqqında hesabatında aktiv və öhdəlikləri qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirmir, əksinə onları likvidlik ardıcıllığı ilə təqdim edir. Bu səbəbdən, həmin dəyişiklik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərməmişdir.

MHBS 16-ya ("İcarələr") dəyişikliklər - Satış və geriyə icarə öhdəliyi (22 sentyabr 2022-ci ildə dərc olunub və 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Dəyişikliklər MHBS 15-in tələblərinə uyğun olaraq satış kimi uçota alınmalı olan satış və geriyə icarə əməliyyatlarına aiddir. Bu dəyişikliklərə əsasən satıcı-icarəyə götürən əməliyyat nəticəsində yaranan öhdəlikləri sonradan elə şəkildə qiymətləndirməlidir ki, aktiv üzərində saxladığı istifadə hüququ ilə bağlı hər hansı gəliri və ya zərəri tanımasın.

MUBS 7 "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və MHBS 7-yə "Maliyyə alətləri: Açıqlamalar: Təchizatçıların maliyyələşdirmə razılaşmaları" dəyişikliklər (25 may 2023-cü ildə dərc olunub). Maliyyə hesabatlarının istifadəçilərinin maliyyələşdirmə razılaşmalarının səhv və ya yanlış açıqlanması ilə bağlı narahatlıqlarına cavab olaraq, BMUSŞ 2023-cü ilin may ayında müəssisələrdən təchizatçıların maliyyələşdirmə razılaşmaları (SFA) haqqında məlumatların açıqlanmasını tələb etmək üçün MUBS 7 və MHBS 7-yə dəyişikliklər etmişdir. Bu dəyişikliklər maliyyə hesabatlarının istifadəçilərinə həmin razılaşmaların müəssisənin öhdəliklərinə və pul axınlarına, eləcə də likvidlik riskinə məruz qalmasının təsirini qiymətləndirməyə imkan verəcək təchizatçının maliyyələşdirilməsi razılaşmaları haqqında məlumatın açıqlanmasını tələb edir. Əlavə açıqlama tələblərinin məqsədi təchizatçının maliyyə razılaşmalarının şəffaflığını artırmaqdır. Qeyd olunan dəyişikliklər tanınma və ya qiymətləndirmə prinsiplərinə deyil, yalnız məlumatların açıqlanması tələblərinə təsir edir.

Yuxarıda qeyd olunan dəyişikliklərin tətbiqi Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərməmişdir.

6 Yeni uçot qaydaları

1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və Qrup tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

- Maliyyə alətlərinin təsnifatına və qiymətləndirilməsinə dəyişikliklər - MHBS 9 və MHBS 7-yə dəyişikliklər (30 may 2024-cü ildə dərc olunub və 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirmələri (2024-cü ilin iyul ayında dərc olunub və 1 yanvar 2026-cı il tarixindən qüvvəyə minir).
- MHBS 18 "Maliyyə hesabatlarında məlumatların təqdimatı və açıqlanması (9 aprel 2024-cü ildə dərc olunub və 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).

Hazırda Qrup yeni standartların və şərhlərin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini qiymətləndirir.

7 Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya tərəflərdən biri digərinə nəzarət etmək iqtidarında olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli dərəcədə təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflərlə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

Əsas idarəedici heyətə ödənişlər. Əsas idarəedici rəhbərliyə İdarə Heyəti və Baş Direktor daxildir.

Əsas idarəedici rəhbərliyə ödənişlər aşağıda göstərilir:

Azərbaycan manatı ilə	**2024**	**2023**
Qısamüddətli ödənişlər:		
- Əmək haqları və mükafatlar	194,387	201,347
Əmək fəaliyyətinin başa çatmasından sonra ödənişlər:		
- DSMF-ə ayırmalar	34,657	38,393
Cəmi	**229,044**	**239,740**

8 Tikili və avadanlıqlar

Tikili və avadanlıqların balans dəyəri üzrə hərəkət aşağıdakı cədvəldə göstərilir:

Azərbaycan manatı ilə	Binalar və digər tikililər	Nəqliyyat vasitələri	Mebel və digər avadanlıqlar	Cəmi
1 yanvar 2023-cü il tarixinə ilkin dəyər	1,580,000	125,611	42,121	1,747,732
Yığılmış amortizasiya	(394,730)	(48,499)	(36,244)	(479,473)
1 yanvar 2023-cü il tarixinə balans dəyəri	**1,185,270**	**77,112**	**5,877**	**1,268,259**
Əlavələr	-	-	2,034	2,034
Amortizasiya xərci	(78,946)	(20,988)	(5,481)	(105,415)
31 dekabr 2023-cü il tarixinə balans dəyəri	**1,106,324**	**56,124**	**2,430**	**1,164,878**
31 dekabr 2023-cü il tarixinə ilkin dəyər	1,580,000	125,611	44,155	1,749,766
Yığılmış amortizasiya	(473,676)	(69,487)	(41,725)	(584,888)
31 dekabr 2023-cü il tarixinə balans dəyəri	**1,106,324**	**56,124**	**2,430**	**1,164,878**
Əlavələr	-	-	2,134	2,134
Amortizasiya xərci	(79,162)	(21,047)	(1,769)	(101,978)
31 dekabr 2024-cü il tarixinə balans dəyəri	**1,027,162**	**35,077**	**2,795**	**1,065,034**
31 dekabr 2024-cü il tarixinə ilkin dəyər	1,580,000	125,611	46,289	1,751,900
Yığılmış amortizasiya	(552,838)	(90,534)	(43,494)	(686,866)
31 dekabr 2024-cü il tarixinə balans dəyəri	**1,027,162**	**35,077**	**2,795**	**1,065,034**

9 Mal-material ehtiyatları

Azərbaycan manatı ilə	2024	2023
Sarğı materialları	-	10,414
31 dekabr tarixinə cəmi mal-material ehtiyatları	**-**	**10,414**

10 Ticarət və digər debitor borclar

Azərbaycan manatı ilə	2024	2023
Ticarət debitor borcları	163,198	71,076
Ticarət və digər debitor borclara daxil olan cəmi maliyyə aktivləri	**163,198**	**71,076**
Digər debitor borclar	122,043	200,130
31 dekabr tarixinə cəmi ticarət və digər debitor borclar	**285,241**	**271,206**

11 Pul vəsaitləri və onların ekvivalentləri

Azərbaycan manatı ilə	2024	2023
Banklardakı cari hesab qalıqları	53,451	77,428
31 dekabr tarixinə cəmi pul vəsaitləri və onların ekvivalentləri	**53,451**	**77,428**

31 dekabr 2024-cü il tarixinə pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kredit riskinin təsnifatı sistemi Qeyd 17-də təsvir edilir.

Azərbaycan manatı ilə	Banklardakı cari hesab qalıqları
- Yüksək dərəcə	53,451
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa xaric	**53,451**

31 dekabr 2023-cü il tarixinə pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kredit riskinin təsnifatı sistemi Qeyd 17-də təsvir edilir.

Azərbaycan manatı ilə	Banklardakı cari hesab qalıqları
- Yüksək dərəcə	77,428
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa xaric	**77,428**

12 Nizamnamə kapitalı

Qrup 26 fevral 1999-cu il tarixində Azərbaycan Respublikasında qapalı səhmdar cəmiyyəti kimi qeydiyyata alınmışdır və nizamnamə kapitalı 94,800 AZN məbləğində müəyyən edilmişdir. Qrup təsdiq edilmiş nizamnamə kapitalı bir səhmin nominal dəyəri 158 AZN olmaqla 600 ədəd adi səhmdən ibarətdir (2023: bir səhmin nominal dəyəri 158 AZN olmaqla 600 ədəd adi səhm). Hər bir adi səhm üzrə səhmdara bir səs hüququ verilir. 31 dekabr 2024 və 2023-cü il tarixlərinə emissiya edilmiş bütün səhmlər tam ödənilmişdir.

12 Nizamnamə kapitalı (davamı)

	31 dekabr 2024			31 dekabr 2023		
	Dövriyyədə olan səhmlərin sayı	%	Məbləğ AZN ilə	Dövriyyədə olan səhmlərin sayı	%	Məbləğ AZN ilə
"Azairtechservice LTD" MMC	372	62%	58,776	372	62%	58,776
Fuad Seyidəliyev Sədra oğlu	114	19%	18,012	114	19%	18,012
Rəhimov Arif Fazil oğlu	114	19%	18,012	114	19%	18,012
Cəmi nizamnamə kapitalı	**600**	**100%**	**94,800**	**600**	**100%**	**94,800**

13 Ticarət və digər kreditor borclar

Azərbaycan manatı ilə	**2024**	**2023**
Ticarət kreditor borcları	22,917	14,165
Amortizasiya olunmuş dəyərlə qiymətləndirilən ticarət və digər kreditor borclara daxil olan cəmi maliyyə öhdəlikləri	**22,917**	**14,165**
Digər qısamüddətli öhdəliklər	62,459	113,540
Cəmi digər kreditor borclar	**62,459**	**113,540**
31 dekabr tarixinə ticarət və digər kreditor borclar	**85,376**	**127,704**

14 Gəlirlər

Qrup aşağıdakı əsas fəaliyyət istiqamətləri üzrə xidmətlərin ötürülməsindən müəyyən zaman anında və dövr ərzində gəlir əldə edir:

Azərbaycan manatı ilə	2024	2023
İşçi qüvvəsinin təchizatı və məsləhət xidmətləri	540,000	716,919
Bərpaedici tibbi sarğılarının satışı	16,790	23,767
Cəmi müştərilərlə müqavilələr üzrə gəlirlər	**556,790**	**740,686**

Hər bir gəlir axını üzrə gəlirlərin tanınma müddəti aşağıda göstərilir:

Azərbaycan manatı ilə	2024	2023
Müəyyən zaman anında	556,790	740,686
Cəmi müştərilərlə müqavilələr üzrə gəlirlər	**556,790**	**740,686**

15 Mənfəət vergisi

(a) Mənfəət vergisi xərcinin/(gəlirinin) komponentləri

Mənfəət vergisi xərci/(gəliri) aşağıdakı komponentlərdən ibarətdir:

Azərbaycan manatı ilə	2024	2023
Cari vergilər	-	9,081
Təxirə salınmış vergilər	3,524	5,912
İl üzrə mənfəət vergisi gəliri	**3,524**	**14,993**

(b) Mənfəət vergisi xərci ilə mənfəət və ya zərərin qanunvericiliklə müəyyən edilmiş müvafiq vergi dərəcəsinə olan hasilinin üzləşdirilməsi

2024 və 2023-cü il ərzində Qrupa tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir. Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin üzləşməsi aşağıda göstərilir.

Azərbaycan manatı ilə	2024	2023
Vergidən əvvəlki mənfəət/(zərər)	**(77,871)**	**55,171**
Qanunvericiliklə müəyyən edilmiş 20% dərəcə ilə hesablanmalı olan mənfəət vergisi xərci/(gəliri):	(15,574)	11,034
Tanınmamış digər potensial təxirə salınmış vergi aktivləri	19,098	3,959
İl üzrə mənfəət vergisi xərci/(gəliri)	**3,524**	**14,993**

15 Mənfəət vergisi (davamı)

(c) Müvəqqəti fərqlərin növləri üzrə təxirə salınmış vergilərin təhlili

MHBS və Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir.

Azərbaycan manatı ilə	31 dekabr 2023	Mənfəət və ya zərərdə (xərc)/gəlir kimi tanınmışdır	31 dekabr 2024
Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti			
Tikili və avadanlıqlar	289,132	(3,524)	285,608
Təxirə salınmış xalis vergi aktivi	**289,132**	**(3,524)**	**285,608**

31 dekabr 2023-cü il tarixində başa çatmış il üçün müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

Azərbaycan manatı ilə	31 dekabr 2022	Mənfəət və ya zərərdə (xərc)/gəlir kimi tanınmışdır	31 dekabr 2023
Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti			
Tikili və avadanlıqlar	295,044	(5,912)	289,132
Təxirə salınmış xalis vergi aktivi	**295,044**	**(5,912)**	**289,132**

16 Təəhhüdlər və şərti öhdəliklər

Məhkəmə prosedurları. Adi fəaliyyət zamanı vaxtaşırı olaraq Qrupa qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik öz təxminlərinə əsasən hesab edir ki, bu iddialar ilə əlaqədar hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli zərər yaranmayacaqdır.

Şərti vergi öhdəlikləri. Azərbaycanın vergi sistemi inkişaf etməkdə olduğuna görə qanunvericilikdə, rəsmi bildirişlərdə və məhkəmə qərarlarında mütəmadi olaraq dəyişikliklərə məruz qalır ki, bu da bir çox hallarda müxtəlif vergi orqanları tərəfindən aydın olmayan, ziddiyyətli və fərqli mövqelər ilə şərh edilir. Vergilər ayrı-ayrı orqanlar tərəfindən yoxlanılır və araşdırılır və ciddi cərimələrin və faiz xərclərinin tətbiq edilməsi ilə nəticələnir. Vergi yoxlamaları həmin yoxlamaların keçirildiyi il də daxil olmaqla, vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyətini əhatə edə bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Belə hallar Azərbaycan Respublikasında digər ölkələrlə müqayisədə daha ciddi vergi risklərinin yaranmasına səbəb ola bilər. Rəhbərlik qüvvədə olan vergi qanunvericiliyi, rəsmi bildirişlər və məhkəmə qərarları ilə bağlı vergi öhdəliklərinə dair öz şərhlərinin düzgün olduğunu hesab edir. Lakin müvafiq orqanların şərhləri fərqli ola bilər və vergi orqanları öz şərhlərinin tətbiq edilməsinə nail olduqları halda, bu, konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

17 Maliyyə risklərinin idarə edilməsi

Qrup daxilində risklərin idarə edilməsi funksiyası maliyyə, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən valyuta, faiz dərəcəsi və digər əmtəə riskləri), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

17 Maliyyə risklərinin idarə edilməsi (davamı)

Kredit riski. Maliyyə aləti ilə əməliyyat aparan bir tərəfin müqavilə öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurularsa, Qrup kredit riskinə məruz qalır.

Kredit riski Qrupun kredit şərtləri ilə məhsul satışı və qarşı tərəflərlə digər əməliyyatlar nəticəsində yaranır ki, bu da maliyyə aktivlərinin və balansdankənar kredit öhdəliklərinin yaranmasına səbəb olur.

Qrupun məruz qaldığı kredit riskinin maksimal səviyyəsi maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində əks etdirilir. Təqdim edilmiş maliyyə zəmanətləri, kreditlərin verilməsi ilə bağlı öhdəliklər, istifadə edilməmiş kredit xətləri və ixrac/idxal akkreditivləri üçün maksimal kredit riski öhdəliyin məbləğidir.

Kredit riskinin idarə edilməsi. Kredit riski Qrupun fəaliyyəti üçün yeganə əhəmiyyətli riskdir. Buna görə, rəhbərlik kredit riskinin idarə edilməsinə xüsusi diqqət yetirir.

Kredit riskinin bazar şəraitindən, gələcək pul axınlarından və zamandan asılı olaraq dəyişməsinə görə risklərin idarə edilməsi məqsədilə qiymətləndirilməsi mürəkkəb prosesdir və modellərin istifadəsini tələb edir. Aktivlər portfeli üzrə kredit riskinin qiymətləndirilməsi defoltun baş vermə ehtimalına, müvafiq zərər əmsallarına və kontragentlər arasında defolt vəziyyətlərinin korrelyasiyası ilə bağlı əlavə təxminləri tələb edir.

Limitlər. Qrup məruz qaldığı kredit riskinə bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu, eləcə də coğrafi və sənaye seqmentləri üzrə limitlər müəyyən etməklə nəzarət edir. Kredit riski səviyyəsinin məhsul və sənaye sektoru üzrə limitləri müntəzəm olaraq rəhbərlik tərəfindən təsdiqlənir. Belə risklərə ayda bir dəfədən az olmayaraq yenidən baxılır.

Kredit riskinin təsnifatı sistemi. Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə, Qrup beynəlxalq reytinq agentliklərinin (Standard & Poor's - "S&P", Fitch, Moody's) müəyyən etdiyi risklərin təsnifatına əsaslanan yanaşmadan istifadə edir. Xarici kredit reytinqləri və müəyyən edilmiş defolt ehtimalı üzrə intervalların müqayisəsi aşağıdakı cədvəldə göstərilir:

Vahid şkala üzrə ödəmə qabiliyyəti dərəcələri	Kənar beynəlxalq reytinq agentliklərinin müvafiq reytinqləri (S&P)	Müvafiq PD intervalı
Ən yüksək dərəcə	AAA dan BB+ dək	0,01% – 0,5%
Yüksək dərəcə	BB dən B+ dək	0,51% – 3%
Orta dərəcə	B, B-	3% – 10%
Xüsusi monitorinq tələb edir	CCC+ dən CC- dək	10% – 99,9%
Defolt	C, D-I, D-II	100%

Vahid şkala üzrə kredit riskinin hər bir səviyyəsi üçün müəyyən ödəmə qabiliyyəti dərəcələri təyin olunur:

- *Ən yüksək dərəcə* – aşağı kredit riski olan yüksək keyfiyyətli aktivlər;
- *Yüksək dərəcə* – orta kredit riski olan kifayət qədər keyfiyyətli aktivlər;
- *Orta dərəcə* – qənaətbəxş kredit riski olan orta keyfiyyətli aktivlər;
- *Xüsusi monitorinq tələb edir* – daha ətraflı monitorinq və bərpaedici idarəetmə tələb edən kreditləşdirmə mexanizmləri; və
- *Defolt* – defolt hadisəsi baş vermis kreditləşdirmə mexanizmləri.

Reytinq modelləri müntəzəm olaraq rəhbərlik tərəfindən nəzərdən keçirilir və faktiki defolt məlumatları əsasında fərqlər təhlil edilir və zərurət yarandıqda yenilənir. Qrup istifadə edilən metoddan asılı olmayaraq, müntəzəm olaraq reytinqlərin düzgünlüyünü təsdiqləyir, modellərin proqnozlaşdırılma imkanını hesablayır və qiymətləndirir.

Kontragentlərə kənar reytinqlər S&P, Moody's və Fitch kimi müstəqil beynəlxalq reytinq agentlikləri tərəfindən təyin edilir. Bu reytinqlər ictimaiyyətə açıqdır.

17 Maliyyə risklərinin idarə edilməsi (davamı)

GKZ-nin qiymətləndirilməsi. Qrupun ticarət debitor borcları əsasən xidmətlərin göstərilməsi üzrə debitor borclarından ibarətdir.

Qrup gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün MHBS 9-da nəzərdə tutulan sadələşdirilmiş yanaşma tətbiq edir. Bu yanaşma bütün ticarət debitor borcları üçün bütöv müddət üzrə gözlənilən kredit zərərləri ehtiyatının istifadəsini nəzərdə tutur. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün ticarət debitor borcları kredit riskinin ümumi xüsusiyyətlərinə və vaxtı keçmiş günlərin sayına əsasən qruplaşdırılmışdır. Gözlənilən kredit zərərlərinin səviyyəsi müvafiq olaraq 31 dekabr 2024 və ya 31 dekabr 2023-cü il tarixinə qədər 36 ay ərzində həyata keçirilən satışlar üzrə ödəniş cədvəllərinə əsaslanır. Bunu nəzərə alaraq, 31 dekabr 2024 və 31 dekabr 2023-cü il tarixinə müştərilər üzrə ticarət debitor borcları üçün zərər ehtiyatı aşağıdakı şəkildə müəyyən edilmişdir. Gözlənilən kredit zərərləri təxmin edilən gələcək pul axınları və yenidən maliyyələşdirmə dərəcəsi ilə diskontlaşdırılmış gözlənilən pul axınlarının cari dəyəri arasındakı fərq kimi hesablanır.

Mərhələlərin müəyyən edilməsi. Debitor borcları portfeli üçün MHBS 9 mərhələlərin müəyyən olunması yanaşmasında praktiki istisnadan istifadə etməklə, defolt olmamış aktivləri 2-ci Mərhələyə təsnifləşdirməyə və mərhələləri müəyyən etməməyə imkan verir. Bu səbəbdən, debitor borcları 2-ci Mərhələyə (aktiv defolt olmamış kimi tanındıqda) və ya 3-cü Mərhələyə (defolt şərtləri yerinə yetirildikdə) təsnifləşdirilir və hər iki mərhələdə ehtiyat bütöv müddət üçün tanınır.

Ticarət debitor borcları üzrə dəyərsizləşmə zərərləri əməliyyat mənfəətinin tərkibində xalis dəyərsizləşmə zərəri kimi göstərilir. Əvvəllər silinmiş məbləğlərin sonradan bərpası da eyni sətir maddəsində göstərilir.

Bazar riski. Qrup bazar risklərinə məruz qalır. Bazar riskləri bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) valyuta məzənnələri və (b) faiz dərəcələri ilə əlaqədar yaranır. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, bu cür yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

Valyuta riski. Rəhbərlik xarici valyuta riski ilə əlaqədar hər bir valyuta üzrə limitlər müəyyən edir və bu limitlərə nəzarət edir.

Hesabat dövrünün sonuna Qrupun məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

	31 dekabr 2024			31 dekabr 2023		
Azərbaycan manatı ilə	**Monetar maliyyə aktivləri**	**Monetar maliyyə öhdəlikləri**	**Xalis mövqe**	**Monetar maliyyə aktivləri**	**Monetar maliyyə öhdəlikləri**	**Xalis mövqe**
AZN	163,198	(22,917)	140,282	77,428	(14,165)	63,263
Cəmi	**163,198**	**(22,917)**	**140,282**	**77,428**	**(14,165)**	**63,263**

Faiz dərəcəsi riski. Qrupun dəyişən faizli maliyyə alətləri olmamışdır. Bu səbəbdən, bazar faiz dərəcələrindəki dəyişikliklərin Qrupun maliyyə vəziyyətinə və pul axınlarına təsiri riski bank kreditləri üzrə sabit faiz dərəcələrinin razılaşdırılması yolu ilə azaldılır. Buna baxmayaraq, kreditlərin müddəti başa çatdıqda və yeni kreditin əldə edilməsi üçün danışıqların aparılması zərurəti yarandıqda, faiz marjaları arta bilər.

17 Maliyyə risklərinin idarə edilməsi (davamı)

Likvidlik riski. Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində müəssisənin çətinliklərlə üzləşəcəyi riskdir. Qrup mövcud olan nağd pul vəsaitlərindən gündəlik istifadə zərurəti ilə bağlı risklə qarşılaşır. Likvidlik riski rəhbərlik tərəfindən idarə edilir. Rəhbərlik hər ay pul vəsaitlərinin hərəkətləri üzrə proqnozlara nəzarət edir.

Qrup əsasən borc öhdəlikləri, eləcə də ticarət və digər kreditor borclardan ibarət olan davamlı maliyyələşdirmə bazasını saxlamağa çalışır. Qrup likvidliklə bağlı gözlənilməz tələbləri tez və lazımi qaydada yerinə yetirmək üçün diversifikasiya olunmuş likvid aktivlər portfelinə vəsait yatırır. Qrupun likvidlik portfeli pul vəsaitləri və onların ekvivalentlərindən, eləcə də ticarət debitor borclarından ibarətdir (Qeyd 10 və 11).

Aşağıdakı cədvəllərdə maliyyə öhdəlikləri müqavilə üzrə ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlərə müqavilə üzrə diskontlaşdırılmamış pul vəsaitlərinin hərəkəti daxildir. Belə diskontlaşdırılmamış pul axınları maliyyə vəziyyəti haqqında hesabatdakı məbləğlərdən fərqlənir, belə ki, maliyyə vəziyyəti haqqında hesabatdakı məbləğlər diskont edilmiş pul axınlarına əsasən hesablanır.

Ödənilməli məbləğ sabit olmadıqda, cədvəldə göstərilən məbləğlər hesabat dövrünün sonuna mövcud olan şərtlərə istinadən müəyyən edilir. Xarici valyuta ilə ödənişlər hesabat dövrünün sonuna olan spot məzənnəsindən istifadə etməklə çevrilir.

31 dekabr 2024-cü il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

Azərbaycan manatı ilə	**Tələb edilənədək və 1 aydan az**	**Cəmi**
Öhdəliklər		
Ticarət kreditor borcları (Qeyd 13)	22,917	22,917
Cəmi gələcək ödənişlər	**22,917**	**22,917**

31 dekabr 2023-cü il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

Azərbaycan manatı ilə	**Tələb edilənədək və 1 aydan az**	**Cəmi**
Öhdəliklər		
Ticarət kreditor borcları (Qeyd 13)	12,935	12,935
Cəmi gələcək ödənişlər	**12,935**	**12,935**

18 Kapitalın idarə olunması

Qrup idarə olunan məcmu kapitalın nizamnamə kapitalından və bölüşdürülməmiş mənfəətdən ibarət olduğunu hesab edir və bunları konsolidasiya edilmiş maliyyə hesabatlarında kapitalda qeydə alır. Kapitalın idarə olunmasında Qrupun məqsədi fəaliyyətin fasiləsizliyini təmin etməklə səhmdarlar üçün müvafiq gəlirlilik səviyyəsini təmin etmək və kapital xərclərini azaltmağa imkan verən optimal kapital strukturunu saxlamaqdır.

Qrupun idarə olunan kapital ilə bağlı xüsusi normativlərə riayət etməsi tələb olunmur.

19 Ədalətli dəyər haqqında açıqlamalar

Ədalətli dəyər məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq fəal bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər

Maliyyə aktivləri və öhdəliklərinin balans dəyəri ədalətli dəyər iyerarxiyasının 3-cü Səviyyəsində qiymətləndirilir və təxminən onların ədalətli dəyərinə bərabərdir. Maliyyə öhdəliklərinin ədalətli dəyəri müqavilə üzrə daxil olacaq pul vəsaitlərini analoji maliyyə alətləri üzrə Qrupa məlum olan cari bazar dərəcəsi ilə diskontlaşdırmaqla hesablanır.

20 Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi

MHBS 9 "Maliyyə alətləri" standartına uyğun olaraq, maliyyə aktivləri aşağıdakı kateqoriyalara təsnifləşdirilir: (a) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri; (b) FVOCI kateqoriyasında qiymətləndirilən borc alətləri; (c) FVOCI kateqoriyasında qiymətləndirilən pay alətləri və (d) amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri. FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) FVTPL kateqoriyasında məcburi qaydada qiymətləndirilən aktivlər və (ii) ilkin tanınma zamanı həmin kateqoriyaya aid edilmiş aktivlər.

31 dekabr 2024 və 2023-cü il tarixinə Qrupun bütün maliyyə aktivləri amortizasiya olunmuş dəyərlə qeydə alınmışdır.

21 Hesabat tarixindən sonrakı hadisələr

Hesabat dövründən sonra əhəmiyyətli hadisələr baş verməmişdir.